# Kitaba məhəbbət

**Muzey Mərkəzi çoxdan bəri belə bir izdiham görməmişdi. Azərbaycanda ilk dəfə keçirilən I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışında baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev və Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev iştirak edirdilər.**




Sərginin açılışına toplaşan insanlar arasında xalqın bütün zümrələrinin nümayəndəsi vardı: dövlət rəsmiləri, xarici ölkələrin nümayəndələri, yazıçılar, xarici və yerli nəşriyyat işçiləri, KİV nümayəndələri, aktyorlar, musiqiçilər, kitabxana işçiləri, sadə insanlar və s.

Muzey Mərkəzinin qarşısındakı bayram əhval-ruhiyyəsi təkcə binanın sütunları üstündən asılmış bayraqlardan və tədbirin adı yazılmış iri lövhədən deyil, həm də insanların çöhrəsindən, onların rəftarından hiss olunurdu.

E.Əfəndiyev tədbiri açaraq bildirdi ki, Azərbaycan xalqı daim kitaba məhəbbət, hörmət və ehtiram hissi ilə yanaşmışdır. "Kitabi-Dədə Qorqud"dan tutmuş bu günümüzə qədər xalqımız və onun qabaqcıl ziyalıları kitaba müqəddəs bir "varlıq" kimi baxmışlar. Azərbaycana rəhbərliyinin bütün dövrlərində ümummilli liderimiz Heydər Əliyev kitablara, onların çap edilərək gənc nəslə çatdırılmasına daim diqqət və qayğı ilə yanaşmışdır.

Son illər yeni, latın qrafikalı nəşrlər hesabına kitabxanaların zənginləşdirilməsi istiqamətində xeyli iş görülmüşdür. Bu işlər Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamından sonra həyata keçirilmişdir. Sərəncama əsasən son illərdə 400 adda 10 milyon nüsxədən çox ədəbiyyat nəşr edilərək ölkə kitabxanalarına hədiyyə olunmuşdur.

Sərginin əhəmiyyətindən danışan Elçin müəllim öz nitqində kitabın bəşər düşüncəsində tutduğu yerdən və kitabla bağlı bu cür tədbirlərin oxucular üçün əvəzsiz şans olduğundan danışdı. Qeyd etdi ki, sərgi Azərbaycanda kitab işinin təbliğinə təkan verəcək, eyni zamanda naşirlərimizə əcnəbi həmkarlarının gördükləri işlərlə yaxından tanış olmaq imkanı qazandıracaqdır. Sərgi birgə layihələrin həyata keçirilməsinə də yardımçı olacaqdır.

Mədəniyyət və Turizm naziri Ə.Qarayev də I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının ölkəmiz üçün böyük hadisə olduğunu qeyd etdi: "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" layihəsi çərçivəsində keçirilən I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirak etmək üçün şəhərimizə dünyanın 20-dən çox ölkəsindən qonaqlar gəlmişdir. Ümumilikdə isə burada 80-dən artıq çap və poliqrafiya müəssisəsi, çap işi ilə məşğul olan qurumların təmsilçiləri iştirak edirlər. Tədbirə ölkəmizdə çap işi ilə məşğul olan 60-dək qurumun nümayəndəsi qatılmışdır. İldə 5-6 beynəlxalq kitab sərgisinin iştirakçısı olan Azərbaycan indi möhtəşəm bir tədbirə ev sahibliyi edir".

Nazir bildirdi ki, tədbirin məqsədi Azərbaycanda poliqrafiya, nəşr işinin təşkilinə kömək etmək, məhsullarımızın dünya bazarına çıxarılmasına təkan verməkdir. Eyni zamanda, belə sərgilər kitaba marağı artırır. Biz inanırıq ki, bu sərgidən sonra kitabxanalarda oxucularımızın sayı xeyli artacaq və gənclərimiz kitaba daha çox maraq göstərəcəklər.

Ə.Qrayev: "Qərara almışıq ki, bu sərgi iki ildən bir keçirilsin. Burada ilk dəfə olaraq bütün xərcləri dövlət iz üzərinə götürmüşdür. Bir neçə il bu ənənəyə sadiq qalacağıq. Sərgidə bütün çap işi ilə məşğul olan qurumların iştirakı pulsuzdur və onlar burada iz məhsullarını sata da bilərlər. Lakin bu sərgilər ənənə halını aldıqdan və beynəlxalq qurumların bu tədbirə marağı artdıqdan sonra iştirakçılar müəyyən məbləğdə pul ödəməli olacaqlar".

Çıxışların ardınca Muzey Mərkəzinin qarşısındakı qələbəlik ağır-ağır içəriyə doğru hərəkət etdi.

Sərgi-yarmarka Muzey Mərkəzinin birinci mərtəbəsindəki geniş foyedən başlayırdı. Foyenin bir tərəfində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə çap olunan kitablar sərgilənirdi. Bu stendlərlə üzbəüz Mədəniyyət və Turizm Nazirliyinin, eyni zamanda M.F.Axundov adına Milli Kitabxananın kitabları nümayiş olunurdu. Sərginin ilk böyük stendləri insanları gurultulu və qayğılı şəhər həyatından qoparıb kitabların əfsanəvi dünyasına atırdı. Elə birinci mərtəbədəcə adam kitabın cazibəsini hiss edir, onun böyük güc, böyük qüvvət olduğuna bir daha inanırdı. Xüsusən Azərbaycan Prezidentinin sərəncamı ilə çap olunan kitabların hamısını bir yerdə görəndə azərbaycanlı oxucu üçün necə biyük, hətta, mən deyərdim, necə savab iş görüldüyünün fərqinə varmaq daha asan idi. Pilləkən boyu düzülən stendlər sanki mərtəbələr arasındakı məsafəni itirmişdi. İllah da ki, qarşıda Heydər Əliyev Fondunun nəfis çap məhsulları sərgilənirdi. Ulu öndərin muzeydəki büstünün sağ və sol tərəflərinə qoyulmuş stendlər doğrudan da tamaşaçıları uzun müddət öz cazibəsindən buraxmırdı.

İkinci mərtəbə Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin Azərbaycan xalçasını və milli geyimlərimizi əks etdirən nəhəng lövhələrindən başlayırdı. Lövhələrin qarşısına qoyulan stolun üstündə isə rəngarəng turizm nəşrləri diqqəti cəlb edirdi.

Bundan sonra yerli və xarici nəşriyyatların stendləri gəlirdi və Muzey Mərkəzinin dördüncü mərtəbəsindəki salonun sonuna qədər uzanırdı.

Açılış gününün yaddaqalan məqamlarından biri bu oldu ki, Baş nazirin müavini E.Əfəndiyev və Mədəniyyət və Turizm naziri Ə.Qarayev






də daxil olmaqla rəsmi nümayəndələr demək olar ki, sərginin bütün stendlərini gəzdilər, ən maraqlı kitab, buklet və digər çap məhsulları ilə yaxından tanış oldular. Bu maraq sərginin digər iştirakçılarına da sirayət etmişdi.

Əvvəldən də qeyd olunduğu kimi, sərginin əsas məqsədlərindən biri dünyanın inkişaf etmiş ölkələrinin nəşriyyat və poliqrafiya işi ilə məşğul olan mütəxəssisləri ilə yerli naşirlərimiz arasında təcrübə mübadiləsinə şərait yaratmaq idi.

Ancaq sərgi göstərdi ki, Azərbaycanda dünya standartlarına uyğun kitablar çap olunur. Bizim naşirlərin, xüsusilə "Nağıl evi", "E.L.", "Şərq-Qərb", "Çinar-çap", "Təhsil", "Altun kitab", "Beşik" və s. məhsulları heç də ABŞ, Fransa, Türkiyə, İran kimi inkişaf etmiş ilkələrdən geri qalmırdı. Heydər Əliyev Fondunun nümayiş etdirdiyi çap məhsulları isə bütün tamaşaçıları və oxucuları sözün həqiqi mənasında heyrətləndirirdi. Xüsusən muğamla və Qarabağ gerçəkləri ilə bağlı nümayiş olunan çap məhsulları həm poliqrafik cəhətdən , həm də dizayn və məzmun etibarı ilə yüksək səviyyədə idi.

■

Xarici ölkələrin - İran, Slovakiya, Latviya, Estoniya, Belarus, Türkiyə, Pakistan, Rusiya, Özbəkistan və Qırğızıstanın stendləri dördüncü mərtəbədəki dairəvi zalda yerləşdirilmişdi. Zala uyğun qurulan stendlər və bu ölkələrin simvolları seyrçilərin gözünü oxşayırdı. Sərgi keçirilən 3 gün ərzində bu ilkələrin stendlərinin qarşısında həmişə müəyyən sayda insanlar olurdu. Onlar təkcə kitablara baxmır, həm də söhbət edir, suallar verirdilər.

Xarici qonaqlardan ABŞ, Fransa, Tacikistan və Qazaxıstanın stendləri dördüncü mərtəbədəki böyük salonun girəcəyində idi. ABŞ hər yerdə olduğu kimi burada da super dövlət olduğunu sübut etdi - həm uşaqlar, həm də böyüklər üçün minlərlə kitab hədiyyə etdi.

Sərgidə iştirak edən bəzi ölkələr (Belarus, Türkiyə, İran, Tatarıstan və s.) bir neçə nəşriyyatla təmsil olunurdu. Türkiyədən gələn məşhur Timaş yayınları iştirakçılar arasında iz fəallığı ilə seçilirdi. Nəşriyyatın nümayəndəsinin sözlərinə görə sərgi müddətində kifayət qədər kitab satışı həyata keçirə bilmişdi. Eyni zamanda xaricilərdən İran, Rusiya nəşriyyatları, yerli müəssisələrdən "Şərq-Qərb", "Əli və nino", "Altun kitab", "Nil mağazaları", "Beşik", "Təhsil" və başqa nəşriyyatlar normal satış edə bildilər.

■

Sərginin ilk tədbiri xalq yazıçısı İsa Muğannanın Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Avrasiya Press" nəşriyyatında çap edilən 6 cildliyinin Muzey Mərkəzinin akt zalında keçirilən təqdimat mərasimi oldu.

Mərasimdə Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, AMEA-nın müxbir üzvü, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, millət vəkili Nizami Cəfərov, Aşıqlar Birliyini sədri, xalq şairi Zəlimxan Yaqub və başqaları yazıçının yaradıcılığı və ömür yolu haqqında danışdılar.

Təqdimat mərasimi öz yüksək tempi ilə sərginin təntənəli açılışına maraqlı davam oldu. Ağzına qədər dolu olan zalda insanların bir çoxu ayaq üstə dayanmışdı. Tədbirə səhhəti ilə əlaqədar bir çox mərasimlərə qatıla bilməyən ustad yazıçı ilə görüş də demək olardı.

Sonda çıxış edən İsa Muğanna onun yaradıcılığına göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə və Mədəniyyət və Turizm Nazirliyinə minnətdarlığını bildirdi. Sonra oxuculara öz imzası ilə kitab bağışladı.

Məlumat üçün bildirək ki, İ.Muğannanın 6 cildlik "Seçilmiş əsərləri"nə yazıçının ən məşhur əsərləri, eyni zamanda son illər qələmə aldığı nümunələr daxil edilib.

Sentyabrın 10-da, saat 15-də Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi "Qızıl Kəlmə" Ədəbi Mükafatına layiq görülən müəlliflərlə oxucuların görüşü təşkil olundu. Görüşdə laureatlardan Aqil Abbas, Elçin Hüseynbəyli, Məmməd Oruc, Saday Budaqlı, Hüseynbala Mirələmov, Taleh Həmid və Yunus Oğuz iştirak edirdilər.

Tədbiri giriş sizü ilə yazıçı, "Ulduz" jurnalının baş redaktoru Elçin Hüseynbəyli açdı və qonaqları salamlayandan sonra I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası barədə danışdı və bu tədbiri Azərbaycan kitabı üçün görülən böyük iş adlandırdı.

Digər çıxışçılar - Aqil Abbas, Hüseynbala Mirələmov, Taleh Həmid və Yunus Oğuz Azərbaycan divlətinin kitab sənətinin inkişafına, gənc və yaşlı nəsil yazarların rifah halının yüksəlməsinə yönəlik gördüyü işləri yüksək qiymətləndirdilər. Eyni zamanda həm "Qızıl Kəlmə" Ədəbi Mükafatının təqdim edilməsi, həm də I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının keçirilməsi kimi yaddaqalan tədbirlər üçün Mədəniyyət və Turizm Nazirliyinə minnətdarlıq etdilər.

Yazarlar oxucuların verdiyi sualları cavablandırdılar və öz kitablarından onlara hədiyyə etdilər.

Həmin gün daha bir təntənəli təqdimat mərasimi baş tutdu - Viktor Andryanov və Hüseynbala Mirələmovun "Girkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabı...

Tədbirdə çıxış edənlər ulu öndərin həyat və fəaliyyətindən bəhs edən bu kitabın spesifik xüsusiyyətlərindən danışdılar, kitabı yüksək dəyərləndirdiklərini bildirdilər.

Qeyd edək ki, "Heydər Əliyev" kitabı bu il Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi "Qızıl Kəlmə" Ədəbi Mükafatına layiq görülmüşdür.

Sentyabrın 11-də əsas tədbirlər Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin mətbuat nümayəndələri ilə görüşündən başladı. Nazir bildirdi ki, Azərbaycan hökuməti xalqımızın tarixi irsinin qorunmasına, mənəvi sərvətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına böyük diqqət yetirir. Nazir Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamına əsasən nəşr edilmiş kitabların bugünkü və gələcək nəslə böyük töhfə olduğunu bildirdi.

Sonra Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə üç dildə nəşr olunmuş "Azərbaycan qayaüstü incəsənəti" kitabının təqdimatı keçirildi. Qeyd olundu ki, kitabda, əsasən, Qobustanın qayaüstü rəsmləri, Naxçıvan ərazisində "Gəmiqaya" və Ordubad ərazisində Tivi kəndi yaxınlığında Nəbiyurd, Qızgəlinçuxur yaylaqlarında aşkar olunmuş petroqliflər, Gəncəçay, Xanlar, Xəzəryanı rayonlar və s. ərazilərdə tapılmış qayaüstü rəsmlər nəşr olunmuşdur.

Kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü V.Əliyev, rəyçilər tarix elmləri doktoru, professor Q.İsmayılzadə və tarix elmləri namizədi N.Müseyibli, foto və illüstrasiyaların müəllifi Məlahət Fərəcovadır.

Həmin gün daha iki maraqlı təqdimat mərasimi ilə yadda qaldı: xalq şairi Zəlimxan Yaqubun "Mən iz dastanımı yazıb gəlmişəm", "Millətdə, dövlətdə, sənətdə" kitabları və "Avrasiya-Press" nəşriyyatının layihəsi olan "Mərhəmət marşrutu: Həqiqətlə üzbəüz" kitabı.

Xatıqladaq ki, ilk iki kitabda tanınmış şair Z.Yaqubun qələmə aldığı şeir və publisistika nümunələri çap edilmişdir.

"Mərhəmət marşrutu: Həqiqətlə üzbəüz" kitabı isə maraqlı bir proyektin nəticəsi kimi reallaşıb... "Avrasiya-Press" nəşriyyatının və Beynəlxalq Kitab Klubunun təşkilatçılığı ilə Azər-





baycanda təhsil alan əcnəbi tələbələr Qarabağa gediblər və gördükləri həqiqətləri qələmə alıblar... Kitab təbii ki, oxucularda böyük maraq doğurdu.

"365 gündə sevimli peyğəmbərim" də orijinal layihə kimi çap edilmişdi. Lakin bu, kitabı ana dilində nəşr edən Regionların İnkişafı İctimai Birliyinin (RİİB) deyil, Türkiyənin məşhur Timaş Yayınlarının layihəsi idi. RİİB sadəcə kitabı dilimizə uyğunlaşdırıb çap etmişdi və indi də təqdimatını keçirirdi. Uşaqlar üçün nəzərdə tutulan kitabda peyğəmbərimizlə bağlı 365 əhvalat toplanıb ki, balaca oxucular hər gün bu əhvalatların birini oxumaqla bir il ərzində öz əfəndiləri ilə "birgə olmaq" şansı qazanırlar.

■

Sentyabrın 12-də Milli Məclisin deputatı, professor Xanhüseyn Kazımlının "Böyük siyasətin davamı" kitabının, Mədəniyyət və Turizm Nazirliyinin illik nəşri olan "Mədəniyyət 2009" kataloqunun, Azərbaycan Yazıçılar Birliyi və Mədəniyyət və Turizm Nazirliyinin birgə layihəsi olan "Poeziya günü" almanaxının və Aqil Abbasın "Dolu" romanının təqdimat mərasimləri keçirildi.

Sentyabrın 12-də Muzey Mərkəzinin akt zalında I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının iştirakçılarına diplom və hədiyyələr təqdim olundu.

Mədəniyyət və Turizm Nazirliyinin Nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin müdiri Vaqif Bəhmənli söylədi ki, paytaxtımızda 3 gün davam edən sərgi öz yüksək səviyyəsi ilə fərqlənmişdir. Sərgidə iştirak edən yerli və xarici nəşriyyatların təmsilçiləri öz çap məhsullarının nümayişi ilə yanaşı, satışını da təşkil etmişlər.

Beynəlxalq sərgi çərçivəsində biri-birindən maraqlı kitab təqdimatları, imza mərasimləri, "dəyirmi masa"lar, müəllif görüşləri keçirilmişdir. Bu cür sərgilərin təşkili gələcəkdə Azərbaycanda kitab nəşri işinin inkişafına güclü təkan verəcəkdir.

V.Bəhmənli qısa çıxışından sonra sözü Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyevə verdi. Nazir müavini bildirdi ki, "Bakı - İslam mədəniyyətinin paytaxtı-2009" layihəsi çərçivəsində keçirilən I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında 8 min 500 adda müxtəlif çap məhsulları sərgilənmişdir. Tədbir günlərində 35 mindən artıq kitabsevər sərgidə iştirak etmiş və müxtəlif tədbirlərə qatılmışdır.

Ə.Vəliyev əlavə etdi ki, Azərbaycanda kitab işinin təbliğinə təkan verəcək bu sərgi naşirlərimizə əcnəbi həmkarlarının gördükləri işlərlə yaxından tanış olmaq imkanı yaratmışdır. Sərgi gələcəkdə birgə layihələrin həyata keçirilməsinə də yardımçı olacaqdır.

Tədbirdə I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası iştirakçısı olmuş nəşriyyatların təmsilçilərinə diplomlar və xatirə hədiyyələri təqdim edildi.

Sonda Mədəniyyət və Turizm Nazirliyi Nəşriyyat sektorunun müdiri Çingiz Əlioğlu Azərbaycan naşirlərinin müxtəlif beynəlxalq sərgilərdə layiq görüldükləri diplomları sahiblərinə təqdim etdi.

■

Sərginin sonuncu günü nümayiş etdirilən bəzi kitablar M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına hədiyyə olundu. Bu münasibətlə kitabxananın akt zalında toplantı keçirildi.

Tədbirdə M.F.Axundov adına Milli Kitabxananın direktoru Kərim Tahirov, beynəlxalq sərgi-yarmarkanın iştirakçısı olan Slovakiya, Estoniya, Latviya, Belarus, Pakistan və digər ölkələrin təmsilçiləri çıxış edərək bu cür tədbirlərin xalqların daha da yaxınlaşmasına və mədəni əlaqələrin genişlənməsinə xidmət etdiyini bildirdilər.

Kitabxananın fondu daha min nüsxə kitabla zənginləşdi. Kitabxanaya xarici ölkələrin 30-a yaxın nəşriyyatında çap edilmiş müxtəlif adda və məzmunda nəşrlər, eləcə də iki yerli nəşriyyatın kitabları təqdim olundu.

K.Tahirov bildirdi ki, kitabxanaya verilən xaricdə nəşr olunmuş kitablar içərisində azərbaycanlı müəlliflərin də əsərləri vardır.

■

İlk beynəlxalq sərginin belə uğurla keçirilməsinin bir sıra səbəbləri vardır. Onların üç ən önəmlisini diqqətə çatdırmadan keçinmək düzgün olmazdı. Əvvəla, son illər Azərbaycan kitabının müxtəlif beynəlxalq müsabiqələrdə yüksək mükafatlara layiq görülməsi... Bu fakt, göstərdi ki, bizim dünya naşirlərinə ürəklə nümayiş etdirmək üçün çap mə ağlı böyük tədbirlər keçirməyə və böyük sərgi-yarmarkalara ev sahibliyi etməyə tam hazır olduğunu sübuta yetirdi.

Üçüncüsü, nazir müavini Ədalət Vəliyevin bu ilin iyul ayının 1-də M.F.Axundov adına Milli Kitabxanada Azərbaycan naşirləri ilə görüşü... Bu görüş naşirləri irəlidən gələn böyük tədbirə inandırdı, onları beynəlxalq kitab sərgisinə mənəvi cəhətdən hazırladı. Eyni zamanda onları fəal olmağa, kitabın çapı və təbliği işinə daha məsuliyyətlə yanaşmağa sövq etdi.

Əhalinin kitab sərgisinə gəlişi, nəşriyyatların kafi həddə satış reallaşdıra bilməsi "Azərbaycanda kitaba maraq ölüb" fikrini kökündən alt-üst etdi. Sən demə şəhərimizdə kitabı sevən minlərlə insan varmış və bu insanlarla kitab arasındakı maneələri aradan qaldırmaq, onların sərbəst "görüşünü" təşkil etmək kifayət imiş.

*Əgər oxucular maraqlı kitablar nəşr edən çap-poliqrafiya müəssisələri ilə yaxından tanış oldularsa, nəşriyyatlar da kitaba olan marağı gördülər. Təbii ki, nəşriyyatlar gələcək tədbirlərdə daha fəal iştirak etməyə çalışacaqlar. Tədbirə qoşulmayanlar isə bu cür sərgilərin əhəmiyyətini anlayıb bundan sonra kənarda qalmaq istəməyəcəklər.*

*Bir sözlə, çəkinmədən söyləmək olar - I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası öz işini uğurla başa vurdu...*

● Ş.AĞAYAR

